

# Milli liderlik zirvəsində

***Hər bir uğuru ilə öyündüyümüz doğma vətənimiz özünəməxsus, həm də bənzərsiz inkişaf yolu ilə gündən-gündən çiçəklənir, qüdrətlənir, dünya siyasət arenasında layiqli yerini möhkəmləndirir. Müstəqil Azərbaycanın son illərdə inanılmaz dərəcədə dəyişdiyini, zamanı qabaqlayaraq onilliklərə bərabər yol qət etdiyini vicdanın səsini eşidən hər kəs etiraf edir. Respublikamız böyük maliyyə və digər resurslar tələb edən layihələri daxili imkanları hesabına maliyyələşdirir, tam müstəqil siyasət yürüdür.***

Dünya xəritəsində öz yeri, mövqeyi, sözü olan digər dövlətlər kimi, Azərbaycanın da uğuru simvolizə edən inkişaf yolunu Heydər Əliyev fenomeni müəyyənləşdirib. Xalqımız məhz bu yola tapınaraq uğurlara, rifaha uzanan böyük məsafəni qısa zamanda qət etməyə nail olub. Çağdaş tariximizin görkəmli siması, korifey siyasətçisi olan Heydər Əliyev bu gün milyonlarla insan üçün lider idealıdır. Azərbaycanın yeni və ən yeni tarixi məhz onun – bu fenomen liderin müəllifliyi ilə yaranıb. Bu il anadan olmasının 92-ci ildönümü tamam olan ulu öndər dövlət idarəçiliyinin hər bir mərhələsində Vətəninə, xalqına sonsuz məhəbbət və sədaqət hissi ilə yanaşıb, milli ideallara daxilən bağlı olub. Dünyanın ən məşhur isimlərinin malik olduğu ali keyfiyyətlər küll halında Heydər Əliyev dühasının kamil şəxsiyyətində təcəssümünü tapır.

Ümummilli lider Heydər Əliyev minilliklər boyu davam edən dövlətçilik tariximizin yalnız 40 ilinə sahiblik edir. Fəqət əsrin yarısına yaxınlaşan bu zaman kəsiyinin mahiyyətində xalqın minilliklərlə intizarında olduğu arzular, niyyətlər, məramlar gerçəyə çevrilib. Bu illər Azərbaycanda müstəqilliyin, nəhayət, əbədi, daimi, dönməz xarakter alması, sabit dövlət quruluşunun yaranması, xalqın təbii və konstitusion haqlarına sahib çıxması, milli-mənəvi yüksəlişə nail olması, fərdin özünü vətəndaş olaraq dərk etməsinə qədər inkişafı kimi misilsiz tarixi prosesi əhatələyir.

Azərbaycanı müstəqil dövlət quruculuğuna aparan kəşməkəşli və şərəfli yol dahi öndərin hakimiyyətə birinci rəhbərliyi dövründən başlayır. 1969-cu ildə Azərbaycana rəhbər seçilən Heydər Əliyevin dövlətə rəhbərliyinin ilk günlərindən respublikada böyük bir inqilabi dönüşün başlandığı göz önündə idi. Gənc, milli ruhlu, enerjili, qətiyyətli bir şəxsin respublika rəhbərliyinə irəli çəkilməsi insanlarda daxilən razılıq və xoş hisslər doğursa da, iqtisadi böhran, tənəzzül içində yaşayan, keçmiş SSRİ-nin geridə qalmış respublikalarından sayılan Azərbaycanda vəziyyətin tezliklə dəyişəcəyinə inanmayanlar da az deyildi. Lakin Heydər Əliyev çevik təşkilatçı, zamanın nəbzini tutan rəhbər kimi sübut etdi ki, istək, iradə, vətənpərvərlik və milli təəssübkeşlik hissi olan zaman az müddətdə çox şeyə nail olmaq olar.

Azərbaycan dövlətinin ideoloji-siyasi və iqtisadi əsaslarını yaratmış ulu öndər 1982-ci ildən sonra fəaliyyətini SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi davam etdirməli olsa da, qanı, canı ilə bağlı olduğu respublikanı unutmadı. 1982-1987-ci illərdə respublikamızın sosial-iqtisadi, mədəni inkişafı üçün əlindən gələni əsirgəmədi. Kremldə Ermənistanın əsassız ərazi iddiaları ilə üzləşmiş Azərbaycanın haqlı mövqeyinin müdafiəsi sahəsində verdiyi bəyanatlar, nümayiş etdirdiyi əzmkar mövqe bir daha təsdiqlədi ki, Heydər Əliyevi həqiqəti deməkdən çəkindirmək, susdurmaq, sadəcə, mümkün deyil.

1990-cı ilin Qanlı Yanvarı göstərdi ki, Heydər Əliyevin məkrli hücumlar üçün hədəf seçilməsinin əsas səbəbi nəticə etibarilə Azərbaycanı sarsıtmaq, xalqımızın başına faciələr gətirməkdən ibarət idi. İmperiyanın bu qanlı əməlinə etiraz bildirmək üçün ailəsi ilə birlikdə Azərbaycanın Moskvadakı səfirliyinin qarşısına gələn Heydər Əliyev daxilən milli ideallara bağlı şəxsiyyət olduğunu təsdiqlədi. Bu faciədən sonra Heydər Əliyevi şantaj edərək Vətəninə qayıtmasına imkan vermir, hansısa şəkildə onun müdafiəsinə qalxanları dərhal təqib və təzyiqlərlə üz-üzə qoyurdular. Lakin ulu öndərimizi heç nə qorxutmadı. Ümummilli lider bütün maneələri dəf edərək, Vətənə, Azərbaycana döndü. Heydər Əliyev dünyaya göz açdığı məkana, qədim Naxçıvan torpağına qayıtdı.

Həmin dövrdə Azərbaycanın başqa bölgələrindən fərqli olaraq Naxçıvan Muxtar Respublikası daha çətin, ağır və acınacaqlı vəziyyətdə yaşayırdı. Muxtar respublika demək olar ki, Azərbaycan rəhbərliyi tərəfindən tamamilə unudulmuş, itirilmək təhlükəsi ilə üz-üzə dayanmışdı. Bu tarixi şəxsiyyətin Naxçıvana gəlişi blokada şəraitində yaşayan, dözülməz problemləri ilə baş-başa qalan naxçıvanlılara ilahi ruh gətirdi. Ümidsizliyə qapılmış insanların ürəyində sanki ümid çırağı yanmağa başladı. Hər gün muxtar respublikanın rayonlarından onlarca insan bu şəxsiyyətin ziyarətinə gələrək onunla ünsiyyətdən mənəvi təsəlli tapırdı. 1990-cı ildə Azərbaycan Ali Sovetinə keçirilən seçkilər zamanı naxçıvanlılar Heydər Əliyevi deputat seçdilər. Böyük öndərin səyi nəticəsində hələ 1991-ci ilin 17 noyabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yekdil qərarına əsasən müstəqilliyimizin rəmzi olan üçrəngli bayrağımız böyük uzaqgörənliklə ilk dəfə muxtar respublikanın rəsmi bayrağı kimi qəbul edildi. Naxçıvan Muxtar Respublikası İttifaqın qalıb-qalmaması barədə səsvermə prosesində iştirakdan imtina edən yeganə diyar oldu. Naxçıvan Muxtar Respublikası referendumda "Yeni ittifaq müqaviləsi"nə cəsarət və qətiyyətlə "Yox!" - dedi. Sovet qoşun hissələrinin muxtar respublikadan çıxarılması, 20 Yanvar faciəsinə həqiqi-siyasi qiymətin verilməsi də Heydər Əliyevin Azərbaycan xalqına əvəzsiz payı idi.

1993-cü ilin əvvəllərində AXC-Müsavat hakimiyyətinin apardığı siyasət Azərbaycanı böyük uçurumla üzləşdirmişdi. Bu cür "münbit" şəraitdən istifadə edən bəzi separatçı qüvvələr ölkəni parçalamaq üçün çirkin oyunlara qoşularaq xarici düşmən qüvvələrin səyləri ilə antidövlət siyasəti həyata keçirirdilər. Nəhayət, 1993-cü ilin iyun ayında Azərbaycanda dövlət idarəolunmaz vəziyyətə gəlib çıxdı. Respublikanın olum və ya ölüm dilemması qarşısında qaldığı bir şəraitdə çıxılmaz vəziyyətdə olan o vaxtkı rəhbərliyi və ziyalıları Naxçıvana üz tutdular. Naxçıvan MR-nın Ali Məclisinin sədri Heydər Əliyevə Bakıya gəlməsi üçün dəfələrlə müraciət edərək, Naxçıvana xüsusi təyyarə göndərdilər.

Heydər Əliyevin Bakıya gəlişini bütün respublika həyəcanla gözləyirdi. Xalqın iradəsinin qələbəsi olaraq həmin tarix 15 iyun – Milli Qurtuluş Günü kimi yaddaşlara həkk olundu. Beləliklə, Azərbaycan xalqı öz taleyini təcrübəli, vətənini və xalqını sevən, onun arzu və istəkləri ilə yaşayan bir liderə - Heydər Əliyevə etibar etdi. Xilaskar missiyanın nəticəsi kimi Azərbaycan xalqı 1993-cü ilin oktyabrında ulu öndər Heydər Əliyevə etimad göstərərək onu özünün layiqli rəhbəri seçdi.

Sonrakı mərhələdə ulu öndər Heydər Əliyev özünün zəngin siyasi-iqtisadi biliyi və təcrübəsi əsasında Azərbaycanın yeni dövr üçün iqtisadi inkişaf prioritetlərini müəyyənləşdirdi, bu sahədə mövcud problemlərin həlli yollarını elmi-nəzəri və praktiki əsasda göstərdi. Demokratik inkişaf yolunu seçmiş bütün ölkələrdə olduğu kimi, Azərbaycanda da bazar iqtisadiyyatı prinsipləri — xüsusi mülkiyyətçilik, azad sahibkarlıq fəaliyyəti, özəlləşdirmə, qeyri-neft sektorunun, sənayenin inkişafı və sosial infrastrukturun yeniləşdirilməsi prioritet seçildi. İqtisadi sahədə həyata keçirilən islahatların əsasında bazar iqtisadiyyatının formalaşdırılması yolu ilə ümumi daxil məhsul istehsalını artırmaq, qeyri-neft sektorunun sürətli inkişafını təmin etmək məqsədi dayanırdı.

Azərbaycanın yeni neft strategiyasının hazırlanaraq həyata keçirilməsi də ümummilli lider Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı ən böyük xidmətlərindən biridir. 1994-cü ilin 20 sentyabrında "Əsrin müqaviləsi"nin imzalanmasının milli inkişafdakı misilsiz əzəmiyyəti bügünkü intensiv sosial-iqtisadi inkişaf fonunda daha qabarıq görünür. Azərbaycana son 11 ildə böyük uğurlar gətirən neft strategiyasının əsas mahiyyəti ölkənin malik olduğu təbii sərvətlərdən Azərbaycan xalqının rifahı naminə daha uğurlu şəkildə istifadə etməyə əsaslanır.

Ümummilli lider respublika iqtisadiyyatının keyfiyyətcə yeni mərhələsində məhz özəl sektoru sosial-iqtisadi inkişafın başlıca təminatçısı kimi dəyərləndirdi. Güclü sahibkarlar təbəqəsinin formalaşmasına, onların cəmiyyətdəki mövqelərinin güclənməsinə çalışdı. 1997-2002-ci illərdə respublikada sahibkarlığın inkişafı üçün zəruri maliyyə təminatı yaradıldı, süni maneələrin aradan qaldırılması üçün mükəmməl qanunvericilik bazası formalaşdırıldı. Fəaliyyətin bu növü ilə məşğul olanların hərtərəfli stimullaşdırılması məsələsi diqqət mərkəzində saxlanıldı.

Kiçik və orta sahibkarlıq subyektlərinin normal fəaliyyəti üçün sonrakı mərhələdə "Azərbaycan Respublikasında kiçik sahibkarlığa dövlət köməyi haqqında" Azərbaycan Respublikasının Qanununa bir sıra mütərəqqi dəyişiklik və əlavələr edilmiş, habelə "Haqsız rəqabət haqqında", "İnvestisiyaların qorunması haqqında", "İstehlak bazarı haqqında" və digər zəruri qanunlar qəbul edildi. Bu qanunlar yerli və xarici sahibkarların təhlükəsiz və xüsusi risklilik tələb etməyən biznes fəaliyyətinə dövlət tərəfindən verilən hüquqi təminatı daha da gücləndirdi. İnvestisiyaların qarşılıqlı təşviqinə və qorunmasına əsaslı zəmin formalaşdırdı.

Siyasətdə və dövlət idarəçiliyində mütərəqqi ənənələrin qorunub saxlanılması hər bir xalqın sabit və davamlı inkişafı baxımından vacib əhəmiyyət daşıyır. Ümummilli lider Heydər Əliyev böyük müdrikliklə müəyyənləşdirdiyi milli inkişaf kursunu özündən sonra inamla davam etdirə biləcək layiqli siyasi varis yetişdirmiş lider kimi xalqının qəlbində yaşayır. Ötən 12 ildə ölkəyə inamla rəhbərlik edən Azərbaycan Prezidenti İlham Əliyev çoxşaxəli fəaliyyəti ilə ona bəslənilən ümidləri tam doğrultdu, cəmiyyətin bütün gözləntilərini gerçəkləşdirməyə çalışmaqla, hər bir fərdin marağına cavab verən qətiyyətli qərarlar qəbul etdi. Həyata keçirilən uğurlu sosial-iqtisadi siyasət nəticəsində Azərbaycan iqtisadiyyatı yüksək dinamizmlə inkişaf etmiş, xalqın mənafeyinə cavab verən bir sıra qlobal layihələr uğurla gerçəkləşdirilmiş, infrastrukturun müasirləşdirilməsi, biznes mühitinin daha da sağlamlaşdırılması, iş adamlarının dəstəklənməsi sahəsində mühüm tədbirlər həyata keçirilmişdir.

Tikinti sektorunda çalışan inşaatçı-sahibkar kimi bu fikirdəyəm ki, cənab İlham Əliyev ötən illər ərzində şəhərin milli üslubda inkişaf etməsi, təmizliyi, gözəlliyi, müasirliyi ilə göz oxşaması üçün də əlindən gələni əsirgəməmişdir. Son illər tikinti sahəsinin dinamik inkişafı, respublikanın hər bir guşəsində böyük abadlıq-quruculuq işlərinin aparılması da məhz dövlət başçısının sahibkarlara qayğısı nəticəsində mümkün olub. "Ulubəy" MMC-nın kollektivi və rəhbərliyi, eyni zamanda, Salyan şosesində böyük bir ünvanda məskunlaşmış "Yeni şəhər" massivinin kollektivi adından ölkə başçısına minnətdarlığımızı bildiririk. Bu gün paytaxtın cənub qapısından şəhərə daxil olanlar əvvəllər cəngəllik görkəmində olan bir ərazidə yeni müasir binaların tikintisini görüb heyran olmaya bilmirlər. Milli memarlıq üslubunda daşla üzlənmiş binaların özü kimi yaşayış mənzilləri də tam təchiz olunmuşdur. Ölkə başçısının tövsiyələrinə uyğun olaraq salınan yeni yaşayış kompleksinin dənizə baxan hissəsində isə 2015-ci ilin Yay Olimpiya Oyunları üçün nəzərdə tutulan üzgüçülük kompeksi tikilmişdir. İş adamı olaraq dövlət başçısı cənab İlham Əliyevin tikinti sahəsindəki müvafiq fərman və sərəncamlarına uyğun fəaliyyət göstərməyə, paytaxt ekologiyasını qorumağa, yaşıllıqları genişləndirməyə çalışırıq.

***Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan son 12 ildə milli yüksəlişin şərəfli mərhələsini yaşayır. Xalqımız ulu öndərin banisi və memarı olduğu müstəqil Azərbaycanın etibarlı əllərdə olmasına tam əmindir və inanır ki, cənab İlham Əliyev ölkəmizi Heydər Əliyev yolu ilə daha da işıqlı gələcəyə aparır.***

**Bəymməməd İSMAYILOV,**
**"Ulubəy" MMC-nin sədri.**